**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**Təsdiq edirəm:**
**“Maliyyə və mühasibat” kafedrasının**
**müdiri: i.e.d., prof. Ə.Ə.Ələkbərov**



**“15” sentyabr 2025-ci il**

# “İDARƏETMƏ UÇOTU” fənni üzrə
# İŞÇİ TƏDRİS PROQRAMI
# (Sillabus)

## I. Fənn haqqında məlumat

**Fənnin kodu:** 00382
**Fənnin növü:** Əsas
**Tədris ili:** 2025/2026
**Tədris semestri:** Payız
**Fakültə:** “Maliyyə və mühasibat”
**Qrup:**
**Tədris yükü:** 60 saat (mühazirə/məşğələ - 30/30)
**Kredit sayı:** 4 (dörd)
**Kafedra:** Maliyyə və audit

## II. Müəllim haqqında məlumat

**Fənni tədris edən müəllim:**
**E-mail ünvanı:**
**İş telefonu:** +994124924004

***Bu Sillabus “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu, “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2005-ci il tarixli 192 nömrəli Fərmanı, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tələblərinin məzmununa uyğun olaraq “Mühasibat uçotu və audit” kafedrasının dosenti, iqtisad elmləri namizədi Hafis Əhməd oğlu Hacıyev tərəfindən hazırlanmışdır.***

## III. Fənnin təsviri

Ölkədə bazar iqtisadiyyatının formalaşması və inkişafı yeni idarəetmə sisteminin, onun tərkib

elementləri və mexanizmlərinin, metodlarının işlənib hazırlanmasını zəruri etmişdir. Bu da öz növbəsində müəyyən elmi-metodiki və praktiki problemlərin araşdırılmasını, təhlil və tədqiq olunmasını ön plana çəkmişdir. Ancaq idarəetmənin, qəbul edilən idarəetmə qərarlarının obyektiv, düzgün və səmərəli olması, təkcə işlənib hazırlanmış və hazırlanan idarəetmə metodları və prosedurlarının səviyyəsindən deyil, idarəedənlərin, idarəetmə qərarlarını hazırlayanların, onları qəbul edənlərin və yerinə yetirənlərin nəzəri, metodiki və praktiki bilik səviyyəsindən asılıdır.

Müəssisə səviyyəsində istənilən idarəetmə qərarı və iqtisadi qərar müəssisə rəhbərliyi və menecerləri tərəfindən qəbul edilir. Odur ki, bu cür qərarlar qəbul etmək hüququna və səlahiyyətinə malik olan hər bir şəxsin peşəkarlıq və hazırlıq səviyyəsi qəbul edilən qərarlara adekvar olmalıdır.

İdarəetmənin əsas funksiyalarından biri idarəetmə uçotudur. Sonuncunun başlıca məqsədi və təyinatı isə informasiya formalaşdırmaqdır. Həmin informasiya əsasında qərarlar qəbul edilir. Mövcud informasiya hələ yeganə düzgün qərarın qəbul oluna biləcəyinə təminat vermir. Məsələ burasındadır ki, müasir biznes şəraitində və mühitində qəbul olunan qərarlar özlüyündə müəyyən risklər daşıyır. Belə riskləri tam aradan qaldırmaq mümkün olmasa da onların neqativ yükünü və təsirini azaltmaq, daha optimal idarəetmə qərarı seçmək üçün yenə də yüksək biliyə və bacarığa malik olmaq lazımdır.

Gələcəkdə operativ, taktiki və strateji qərarlar qəbul edə biləcək səviyyəyə malik kadrların hazırlanması iqtisad yönümlü universitetlərdə həyata keçirilir. Həmin universitetlərdə, o cümlədən Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) “Mühasibat uçotu və audit” ixtisası üzrə təhsil alan tələbələr üçün “İdarəetmə uçotu” fənni əsas fənnlər sırasına daxil edilmişdir.

## IV. Fənnin məqsədi və vəzifələri

“İdarəetmə uçotu” fənninin tədrisinin əsas məqsədi tələbələrə konkret müəssisənin, şirkətin istehsal-kommersiya şəraitinə və bazarın tələblərinə uyğun olaraq idarəetmə uçotunun prinsiplərini, funksiyalarını, informasiya formalaşdırmaq metodları və üsullarını öyrətmək bə bunun əsasında onlara operativ, taktiki və strateji xarakterli idarəetmə qərarları qəbul etmək, ayrı-ayrı məqsədlər, fəaliyyət növləri, mərkəzlər və seqmentlər üzrə xərclərin, gəlirlərin və nəticələrin təhlilini aparmaq qaydasını göstərməkdir.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- İdarəetmə uçotunun məzmunu, təyinatı və prinsipləri haqqında biliklərin formalaşdırılması;
- Təsərrüfat fəaliyyətinin müxtəlif növlərinə aid olan müəssisələrdə növlər, daşıyıcılar, formalaşma yerləri, məsuliyyət mərkəzləri, idarəetmə səviyyələri və biznesin seqmentləri üzrə gəlirlərin, xərclərin və təsərrüfat fəaliyyətinin nəticələrinin hesablanması və uçotu metodologiyasının nəzəri əsaslarının öyrənilməsi;
- Gəlir və xərclərin planlaşdırılması və uçotunun müasir sistemlərinin mənimsənilməsi;
- İdarəetmənin müxtəlif səviyyələrində idarəetmə qərarlarının qəbul edilməsi və səmərəliliyinin qiymətləndirilməsi məqsədi ilə idarəetmə uçotu məlumatlarının formalaşdırılması və təqdim edilməsi bacarıqlarının əldə edilməsi.

## V. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Müəssisənin idarəetmə strukturunda idarəetmə uçotunun rolu, uçotun bu növünün xarakterik xüsusiyyətlərini;
- İdarəetmə uçotunun məqsəd və vəzifələrini;

- İdarəetmə uçotunun tətbiqinin təşkilati aspektlərini;
- İdarəetmə uçotunun tərkibi, onun predmeti, prinsipləri, metodları və reqlamentləşdirilməsini;
- Uçot işlərinin həyata keçirilməsi üçün informasiya bazasını;
- Məsrəflərin təsnifatı və maya dəyərinin kalkulyasiyasını;
- Xərclərin uçotu və məhsulun maya dəyərinin kalkulyasiyasının müasir metodlarını.

**Bacarmalıdırlar**:

- Müxtəlif əlamətlər üzrə məsrəfləri təsnifləşdirməyi;
- Məhsulun maya dəyərini müxtəlif metodlarla hesablamağı;
- Səmərəli idarəetmə qərarlarının hazırlanması üçün idarəetmə uçotunun məlumatlarından istifadə etməyi.

## VI. Fənnin mühazirə mövzuları

**Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:**

1. İdarəetmə uçotunun mahiyyəti və məqsədi
2. Verilənlər mənbələri
3. Məsrəflərin təsnifatı
4. Məlumatların təqdim edilməsi
5. Məsrəflərin uçotu texnikası Mal-materialların uçotu
6. Məsrəflərin uçotu texnikası Əməyin uçotu
7. Məsrəflərin uçotu texnikası Qaimə məsrəflərinin uçotu
8. Dolayı məsrəflərin maya dəyərinə bölüşdürülməsi metodu (absorbsiya) və marjinal metod
9. İstehsal məsrəflərinin uçotu metodları və alternativ məsrəf hesablamaları
10. Büdcələşdirmə
11. Normativ maya dəyəri (standart costing)
12. Fəaliyyət nəticələrinin ölçülməsi

## VII. Prerekvizitlər

Yoxdur.

## VIII. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqlarının yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## IX. Əsas dərslik və ədəbiyyat:

1. Maliyyə Elm-Tədris Mərkəzi. İdarəetmə uçotu Fundamental səviyyə. ACCA F2

2. S.M.Səbzəliyev, V.M.Quliyev. İdarəetmə uçotu. Bakı, “Elm və təhsil” nəşriyyat-poliqrafiya müəssisəsi
3. ACCA F2 Management Accounting Kaplan Study text 2018
4. ACCA F2 Management Accounting Kaplan Revision kit 2018
5. ACCA F2 Management Accounting BPP Study text 2020
6. ACCA F2 Management Accounting BPP Revision kit 2020
7. Openstax (opensource), Principles of Accounting Vol. 2
8. https://opentuition.com/acca/ma/

## X. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adları | Mühazirə dərsləri | Seminar dərsləri | |
|---|---|---|---|---|
| 1 | İdarəetmə uçotunun mahiyyəti və məqsədi | 2 | 2 | **1** (fəsil A1)<br>**2** (fəsil 1) |
| 2 | Verilənlər mənbələri | 2 | 2 | **1** (fəsil A2) |
| 3 | Məsrəflərin təsnifatı | 2 | 2 | **1** (fəsil A3) |
| 4 | Məlumatların təqdim edilməsi | 2 | 2 | **1** (fəsil A4) |
| 5 | Məsrəflərin uçotu texnikası Mal-materialların uçotu | 2 | 2 | **1** (fəsil B1)<br>**2** (fəsil 5) |
| 6 | Məsrəflərin uçotu texnikası Əməyin uçotu | 2 | 2 | **1** (fəsil B1)<br>**2** (fəsil 5) |
| 7 | Məsrəflərin uçotu texnikası Qaimə məsrəflərinin uçotu | 2 | 2 | **1** (fəsil B1)<br>**2** (fəsil 5) |
| 8 | Dolayı məsrəflərin maya dəyərinə bölüşdürülməsi metodu (absorbsiya) və marjinal metod | 2 | 2 | **1** (fəsil B2)<br>**2** (fəsil 6.5) |
| 9 | Dolayı məsrəflərin maya dəyərinə bölüşdürülməsi metodu (absorbsiya) və marjinal metod | 2 | 2 | **1** (fəsil B2)<br>**2** (fəsil 6.5) |
| 10 | İstehsal məsrəflərinin uçotu metodları və alternativ məsrəf hesablamaları | 2 | 2 | **1** (fəsil B3) |
| 11 | İstehsal məsrəflərinin uçotu metodları və alternativ məsrəf hesablamaları | 2 | 2 | **1** (fəsil B4) |
| 12 | Büdcələşdirmə | 2 | 2 | **1** (fəsil C1-C4)<br>**2** (fəsil 9) |
| 13 | Büdcələşdirmə | 2 | 2 | **1** (fəsil C5-C7)<br>**2** (fəsil 9) |
| 14 | Normativ maya dəyəri (standart costing) | 2 | 2 | **1** (fəsil D1-D3)<br>**2** (fəsil 7) |
| 15 | Fəaliyyət nəticələrinin ölçülməsi | 2 | 2 | **1** (fəsil E1-E4)<br>**2** (fəsil 10-11) |
| | **CƏMİ** | **30** | **30** | |

## XI. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;

5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda semestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır.

Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

**XII. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**XIII. Sərbəst işlər**

Fənn üzrə sərbəst işlər nəzərdə tutulmayıb.

**XIV. Fənn üzrə qiymətləndirmə**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı - 100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| İmtahan (final) | 50 | 50% |
| Ara qiymətləndirmə əsasında | 30 | 30% |
| Aktivlik | 20 | 20% |
| **Cəmi:** | **100** | **100%** |

Semestr müddətində 1 kollokvium keçirilir.

Ara qiymətləndirmədə iştirak etmədiyi halda tələbəyə jurnalda “0” yazılır. Tələbə 50 balı imtahanda yığır.

| | | |
|---|---|---|
| 91-100 | əla | A |
| 81-90 | çox yaxşı | B |
| 71-80 | yaxşı | C |
| 61-70 | kafi | D |
| 51-60 | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fənndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi: i.f.d.baş müəllim N.Atakişiyeva**